

# Neft qoxulu dəniz qəzeti

***63 il əvvəl dünya neftçıxarma tarixində yeni səhifə açıldı. Dənizdə neft hasilatının mənimsənilməsi bu sahədə bir sıra ilklərə meydan olmuş Azərbaycan sənayesinin adına yazılıb. Bu öyünclü tarixdən 18 il sonra isə dünyada dəniz neftçilərinin fəaliyyətinə ilk ayna tutan “Neft daşları” adlı çoxtirajlı qəzet nəşrə başlayıb.***

Bu gün 55 yaşı tamam olan “Neft daşları” qəzetinin 1967-ci ilin oktyabrında ilk sayının işıq üzü gördüyü gün dəniz neftçiləri artıq 7,6 milyon ton neft hasil etmişdilər. Həmin gün isə 20 min 820 ton “qara qızıl” çıxarılmışdı. Belə bir qəzetin nəşrinin təşəbbüskarı görkəmli Azərbaycan neftçisi, dənizdə neft hasilatının pionerlərindən biri Bəhmən Hacıyev olmuşdu.

“A-3” formatında, 4 səhifədən ibarət və həftədə 1 dəfə işıq üzü görən nəşrin Azərbaycan versiyasının ilk redaktoru Aydın Kərimov, rus dilində rəhbəri isə Vladimir Kremer olmuşdu. Sonrakı illərdə Azərbaycan redaksiyasına Aslan Kəmərli, Sabir Rzayev, Eynulla Umudov, rus bölməsinə isə Oleq Ginzburq, Nikolay Qlazkov rəhbərlik etmişdilər. 1991-ci ildən “Neft daşları” yalnız Azərbaycan dilində nəşr olunur. 2004-cü ildən qəzet taleyini Xəzər neftçiləri ilə birgə fəaliyyətə həsr etmiş fədakar jurnalist Xeyrulla Ağayevin rəhbərliyi ilə uğurla davam etdirir.

“Neft daşları” qəzeti yarım əsrdən çoxdur ki, ölkənin çoxtirajlı qəzetləri arasında seçilən nəşrlərdən biridir. Bu qəzet vaxtilə Azərbaycan Jurnalistlər Birliyinin nüfuzlu mükafatı olmuş “Qızıl qələm”ə layiq görülmüş yeganə çoxtirajlı mətbu vasitədir. Bu gün isə qəzet belə nəşrlər arasında ən geniş auditoriyası olması – 4 min tirajla çıxması ilə seçilir.

Xəzər neftçilərinin qəhrəmanlıq dastanının canlı və zəngin salnaməsi olan “Neft daşları” qəzetinin redaksiyasını 55 illik səmərəli fəaliyyətinin tamam olması münasibətilə təbrik edir, indiki kollektivə yeni yaradıcılıq uğurları arzulayırıq.

**“Xalq qəzeti”**

Xalq qəzeti.- 2022.- 19 oktyabr.- S.10.